*Cari ilin birinci yarısının yekunları*

# NAFTALAN İNKİŞAF VƏ TƏRƏQQİ DÖVRÜNÜ YAŞAYIR

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarımilinin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında möhtərəm Prezidentin dərin məzmunlu nitqindən irəli gələn vəzifələr, Naftalan Şəhər İcra Hakimiyyətində hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət sahələrinin rəhbərlərinin iştirakı ilə ətraflı müzakirə olunmuşdur. Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov iştirakçıları salamlayaraq, respublikada gedən kompleks inkişafdan, şəhərdə aparılan abadlıq-quruculuq işlərindən və yeni layihələrdən ətraflı söhbət açaraq qeyd etdi ki, ölkədə aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində kurort şəhəri olan Naftalanda da hərtərəfli inkişaf üçün mühüm işlər görülmüş və bu tədbirlər hazırda da davam etdirilir.**



İyun ayında Azərbaycanın I Avropa Oyunları kimi mötəbər bir tədbirə ev sahibliyi, bu oyunların yüksək səviyyədə təşkili, Azərbaycan xalqının böyük uğuru kimi tarixə yazıldı, eləcə də ölkəmizin növbəti dəfə beynəlxalq əhəmiyyətli tədbirlərə yüksək səviyyədə ev sahibliyi etmək qüdrətində olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Bu, ilk növbədə, ölkəmizin reallıqları ilə bağlıdır. Son illərdə həyata keçirilən məqsədyönlü siyasət sayəsində ölkə yüksək sosial-iqtisadi inkişaf göstəricilərinə imza atmışdır.

2015-ci ilin birinci yarımilinin yekun statistik göstəricilərinə nəzər salsaq görərik ki, qarşıya qoyulmuş vəzifələr uğurla icra olunmuşdur.

Şəhər üzrə ümumi məhsul buraxılışı 5819.3 min manat, iqtisadiyyatın aparıcı sahəsi olan sənaye istehsalı 915.2 min manat təşkil etmişdir. Əhaliyə 189.6 min manatlıq nəqliyyat xidməti göstərilmişdir. Əhalinin həyat səviyyəsini xarakterizə edən əsas göstəricilərdən biri olan pullu xidmətlərin həcmi 5100.8 min manat olmuşdur. Pərakəndə əmtəə dövriyyəsinin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz artaraq 7375.1 min manat, bir işçiyə hesablanmış orta aylıq əmək haqqı isə 2014-cü ilin birinci yarısı ilə müqayisədə 5.7 faiz artaraq 293 manat, hüquqi və fiziki şəxslərə göstərilən informasiya və rabitə xidməti isə 90.7 min manat təşkil etmişdir.

Yarım il ərzində əhalinin sosial məsələləri diqqət mərkəzində saxlanılmışdır. Aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müəyyən işlər görülmüş, Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 61 ailəyə ünvanlı dövlət sosial yardım təyin edilmiş, bir ailəyə düşən yardımın məbləği 142 manat təşkil etmişdir. Cəzaçəkmə müəssisəsindən azad olunmuş 5 nəfərə birdəfəlik müavinət və 11 Çernobıl əlilinə isə müalicə üçün birdəfəlik müavinət təyin edilmişdir. Mərkəzin sosial məişət xidmət sektoru tərəfindən 48 nəfər tənha ahıl və əlil vətəndaşa sosial xidmət işçiləri tərəfindən evlərdə müvafiq xidmətlər göstərilmişdir.

Hesabat dövründə Dövlət Sosial Müdafiə Fondunun şəhər şöbəsi tərəfindən 27 nəfərə müvafiq kateqoriyalar üzrə pensiya təyinatı aparılmışdır. Ümumilikdə şəhər üzrə 1457 pensiyaçıya xidmət göstərilib.

Əmək ehtiyatlarından düzgün və səmərəli istifadə etmək məqsədilə Məşğulluq Mərkəzində boş iş yerləri haqqında məlumatlar toplanmış və işsiz sakinlərin qeydiyyatı aparılmışdır. Bu ilin altı ayı ərzində Məşğulluq Mərkəzinə 141 nəfər qeyri-məşğul şəxs müraciət etmiş, onlardan 121 nəfəri ixtisasına və peşəsinə uyğun işlə təmin edilmiş, 5 nəfərə işsizlik statusu təyin olunmuşdur. O cümlədən vətəndaşların işlə təmin olunması məqsədilə 15 may 2015-ci il tarixdə keçirilmiş əmək yarmarkasında 58 nəfər işlə təmin olunmuşdur.

Şəhər ərazisində istehlak mallarının keyfiyyətinə və süni qiymət artımına nəzarət edilməsi məqsədilə ŞİHB aparatının məsul işçiləri ilə Gigiyena və Epidemiologiya Mərkəzinin mütəxəssisləri tərəfindən turizm mövsümü olduğu üçün əsasən turizm obyektlərində yoxlamalar təşkil edilmişdir.

Naftalan kurort şəhərində aparılan quruculuq-abadlıq, yenidənqurma işləri ilə yanaşı, təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişaf etdirilməsi, mövcud problemlərin aradan qaldırılması ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində olmuşdur.

Şəhərin və tabeliyində olan kənd tam orta məktəbləri tam təmirlidir. Məktəblərin maddi-texniki bazası gücləndirilib, qış mövsümündə məktəblər fasiləsiz olaraq istiliklə təmin olunub. Şəhər İcra Hakimiyyəti tərəfindən məktəblərdə davamiyyətə və dərs prosesinin gedişatına mütəmadi olaraq nəzarət edilmişdir. Həmçinin şəhər Təhsil Şöbəsinin təsdiq etdiyi Tədbirlər Planına əsasən tədris ili ərzində məktəblərarası toplantılar, rəsm, inşa, bilik və mahnı müsabiqələri, yarışlar təşkil olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun əməkdaşları da Naftalan məktəblərində və körpələr evi-uşaq bağçasında olarkən burada görülən işləri məmnunluq hissi ilə qeyd etmişdilər. Bu dövrdə Heydər Əliyev Mərkəzində şəhərin ümumtəhsil məktəblərinin XI sinif şagirdlərinə "Ümummilli lider Heydər Əliyevin fəaliyyəti" mövzusunda növbəti açıq dərslər tədris olunmuşdur.

Bütün bunların nəticəsidir ki, 2014-2015-ci tədris ilində şəhər və rayonlar üzrə respublikanın bütün orta ümumtəhsil müəssisələrində keçirilmiş buraxılış imtahanlarının nəticələrinə əsasən, Naftalan şəhər tam orta məktəbləri arasında birinci yerə çıxmışdır.

Ölkə başçısının tapşırığına əsasən fevral-may aylarında əhalinin kütləvi tibbi müayinəsi yüksək səviyyədə təşkil olunmuş və vətəndaşların rahatlığı üçün xəstəxanada bütün lazımi şərait yaradılmışdır. Həmçinin xəstəxanaya gəlməkdə çətinlik çəkənlərə evlərdə tibbi xidmət göstərmək məqsədilə həkimlərdən ibarət səyyar briqadalar yaradılmışdır. Bu vaxtadək müayinə zamanı aşkar olunan xəstələrdən 350 nəfər ambulator, 18 nəfər stasionar və 3 nəfər isə Bakı şəhərinə göndərilərək müalicəyə cəlb olunmuşdur. Altı ay ərzində 650 imtiyazlı xəstə dərman preparatları ilə təmin olunmuşdur.

Hesabat dövründə şəhərin mədəni həyatı da zənginləşmişdir. Xüsusən şəhər İcra Hakimiyyətinin, Mədəniyyət və Turizm şöbəsinin təşkilatçılığı ilə mühüm tarixi hadisələrə, bayramlara həsr olunmuş tədbirlər əhatə və təsir dairəsinə görə fərqlənmişdir. Novruz bayramında, Məşəl estafeti şəhərimizdə olarkən sakinlərin asudə vaxtlarını səmərəli keçirməsi üçün konsert proqramları təşkil olunmuşdur.

Yeniyetmə və gənclərlə işin təkmilləşdirilməsi də şəhər İcra Hakimiyyətinin diqqət mərkəzində olmuşdur. Gənclər və İdman idarəsi tərəfindən idmanın inkişaf etdirilməsi və gənclərlə işin təşkili istiqamətində müəyyən işlər görülmüşdür. Şəhərdə ayrı-ayrı idman növləri üzrə müxtəlif yaş qrupları arasında idman yarışları keçirilmişdir. Həmçinin məlumdur ki, birinci Avropa Oyunlarının məşəli mayın 14-də kurortlar şəhəri Naftalana gətirilmişdir. Özünün müalicəvi nefti ilə dünyada məşhur olan Naftalan şəhərinin sakinləri, buraya gələn yerli, xarici qonaqlar yolboyu düzülərək, ilk Avropa Oyunlarının məşəl estafetini böyük coşqu ilə qarşıladılar. Tədbirin keçirilməsi üçün bütün işlər yüksək səviyyədə təşkil olunmuşdur. Bir daha bu işdə əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm. Bu oyunlara xalqımız necə uğurla başladısa, elə həmin uğurla da oyunları başa vurdu. İdmançılarımızın qələbələri isə bizim üçün ikiqat sevinc oldu.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın Naftalan şəhərinə aid bəndlərinin icrası davam etdirilmişdir.

Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncam və göstərişləri ilə şəhərdə geniş vüsət almış tikinti, quruculuq və abadlıq işləri, şəhərin küçə və meydanlarının abadlaşdırılması, yenidən qurulması ilə bağlı tədbirlər davam etdirilmişdir.

Çoxmənzilli yaşayış binalarının fasadında və dam örtüyündə aparılan əsaslı təmir işləri tam başa çatdırılmışdır. Hazırda binaların ətrafında və küçələrdə abadlıq işləri aparılır. Şəhərdaxili yolların asfaltlanması sahəsində də xeyli işlər görülüb. Yeni asfalt örtüyünün salınması məqsədilə şəhərdaxili yollara yeni bordürlər düzülür.

Şəhər ərazisindəki köhnə elektrik dirəkləri və istismara yararsız tikililər sökülüb götürülür. Həmin ərazilər təmizlənir, yerində sakinlərin və şəhərimizə gələn qonaqların mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün mini istirahət parkları və piyada yolları salınır. Yeni salınan parklarda besetkalar, basketbol, tennis və uşaq oyun meydançaları yaradılacaq, yeni yaşıllıqlar salınacaq, gül və bəzək kolları əkiləcəkdir.

Hesabat dövründə Dövlət Proqramına uyğun olaraq kanalizasiya şəbəkəsinin tikintisi işləri davam etdirilmişdir. Artıq 150-800 mm polietilen borularla 47.9 km uzunluğunda kanalizasiya şəbəkəsinin tikintisi işləri yekunlaşmaq üzrədir. 2015-ci ilin yarımilində Qurban Namazəliyev adına yaşayış məhəlləsində 600 metr uzunluğunda kanalizasiya xətti çəkilmiş, 500 metr uzunluğunda yeni su xəttinin çəkilişinə başlanılacaqdır. Layihə çərçivəsində Naftalan Sukanal idarəsi üçün yeni inzibati binanın da tikintisinə başlanılıb. Həmçinin yaxın günlərdə əhali və qeyri-əhali abonentlərinə öncədən ödəmə sistemli smart elektron su sayğaclarının quraşdırılmasına başlanılacaqdır.

Payız-qış mövsümünə hazırlıq işlərinə yay aylarından başlanılmışdır. Bununla əlaqədar Tədbirlər Planı tərtib edilmiş, konkret vəzifələr müəyyənləşdirilərək icra edilmişdir. Bunun nəticəsidir ki, qış mövsümündə əhali, məktəblər, körpələr evi-uşaq bağçası fasiləsiz olaraq istilik enerjisi ilə təmin edilmişdir.

Bildiyiniz kimi, turizm şəhər iqtisadiyyatının əsas və aparıcı sahəsidir. Ölkə başçısının tapşırığına uyğun Naftalanda son illər turizm sahəsində aparılmış islahatlar şəhərimizə Azərbaycandan kənarda da marağın artmasına səbəb olmuş, digər ölkələrin kurort şəhərləri 2011-ci ildən başlayaraq Naftalan şəhəri ilə beynəlxalq əlaqələr qurmağa başlamışdır. Belə ki, Naftalan şəhəri 2011-ci ildə Fransanın Leql, 2013-cü ildə İtaliyanın Pozitano, 2014-cü ildə isə Rusiya Federasiyasının Yessentuki və Polşanın Uneyov şəhərləri ilə əməkdaşlıq etməyə başlamışdır. Hesabat dövrünə təsadüf edən hadisələrdən biri də qardaşlaşmış Polşanın Uneyov şəhər merinin rəhbərlik etdiyi nümayəndə heyətinin Naftalana səfəri olmuşdur. Qonaqlar respublikamızın, o cümlədən Naftalanın uğurlu inkişafını, görülən işlərin yüksək qiymətə, təqdirəlayiq olduğunu bildirmiş və xalqımızın qonaqpərvərliyinə heyran olduqlarını vurğulamışlar.

Çıxışının sonunda şəhər başçısı ölkə rəhbərinin göstəriş və tapşırıqlarından, eyni zamanda, sonsuz diqqət və qayğısından danışaraq bildirdi ki, yaradılan hər bir yüksək şərait, rahatlıq və əmin-amanlıq sakinlər tərəfindən böyük rəğbətlə qarşılanır və ölkə Prezidentinə dərin minnətdarlıqlarını bildirirlər. Bəli, bu gün Naftalan inkişaf və tərəqqi dövrünü yaşayır. Təkcə şəhərin siması deyil, sakinlərin həyat tərzi, sosial-iqtisadi vəziyyəti də yaxşılaşmışdır. Tədbirin sonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**